# Azerbaijani - Soldiers Scriptures

## Efeslilərə 6:10-18

10 Nəhayət, Rəbdə və Onun böyük qüvvəsində möhkəmlənin.11 İblisin hiylələrinə qarşı dura bilmək üçün Jehovahın verdiyi bütün zireh və silahlara bürünün.

12 Çünki mübarizəmiz qandan və ətdən ibarət olan insanlara qarşı deyil, şər başçılarına və hakim olanlara, bu qaranlıq dünyanın hökmranlarına, səmadakı ruhani şər qüvvələrə qarşıdır.

13 Buna görə Jehovahın bütün zireh və silahlarını götürün ki, pis gündə müqavimət göstərib, əlinizdən gələn hər bir şeyi etdikdən sonra dayana biləsiniz.

14 Beləliklə, həqiqəti kəmər kimi belinizə bağlamış, salehliyi zireh kimi döşünüzə taxmış,

15 barışıq Müjdəsini yaymaq hazırlığını ayaqlarınıza geyinmiş olaraq yerinizdə durun.

16 Bütün bunlara əlavə olaraq şər olanın bütün yanar oxlarını söndürə bilmək üçün iman qalxanını əlinizə götürün.

17 Xilas dəbilqəsini və Ruhun qılıncını, yəni Jehovahın kəlamını götürün.

18 Hər cür dua və yalvarışla, həmişə Ruhun idarəsi ilə dua edin. Bu məqsəd uğrunda tamamilə mətin olub oyaq qalaraq bütün müqəddəslər üçün dua edin.

## Zəbur 91

1 Haqq-Taalanın pənahında yaşayan, Külli-İxtiyarın kölgəsində oturan insan

2 Rəbb haqqında belə söyləyir: «O mənim sığınacağımdır, qalamdır, Jehovahımdır, Ona güvənirəm».

3 Bil ki, O səni ovçunun tələsindən, Ağır xəstəliyə düşüb ölməkdən qurtarar.

4 Səni qanadlarının altına alar, Pərlərinin altında sığınacaqsan. Sədaqəti qalxanın, sipərin olar.

5 Nə gecənin kabusundan, Nə də gündüz atılan oxdan,

6 Nə zülmətdə dolanan ağır xəstəlikdən, Nə də günorta məhvedici qırğından qorxmazsan.

7 Yanında min nəfər, Sağında on min nəfər qırılsa, Sənə xətər dəyməz.

8 Gözlərinlə baxacaqsan, Pislərin cəzasını görəcəksən.

9 «Ya Rəbb, sığınacağımsan!» dediyin üçün, Haqq-Taalaya sığındığın üçün

10 Şərə düçar olmazsan, Bəla çadırından uzaq qaçar.

11 Jehovah sənə görə mələklərinə əmr edər ki, Gedəcəyin hər yerdə səni qorusunlar,

12 Səni əlləri üstündə aparsınlar, Ayağın bir daşa dəyməsin.

13 Şiri, gürzəni ayaqlayarsan, Gənc aslanı, əfi ilanı tapdalayarsan.

14 «Mən Rəbbi sevdiyinə görə onu azad edəcəyəm, İsmimi tanıdığına görə onu yüksəldəcəyəm.

15 Məni çağırarkən ona cavab verəcəyəm, Dar günündə ona yar olacağam, Onu xilas edib şərəfə-şana çatdıracağam.

16 Onu uzun ömürlə doyduracağam, Ona qurtuluşumu göstərəcəyəm».

<u>Zəbur 18</u>

1 O belə oxudu: Ey mənə qüvvət verən Rəbb, Səni sevirəm.

2 Rəbb qayam, qalam, xilaskarımdır, Jehovahım qayamdır, Ona pənah gətirəcəyəm, Odur qalxanım, qüdrətli qurtarıcım, qülləm.

3 Həmdə layiq Rəbbi çağıracağam, Düşmənlərimin əlindən qurtulacağam.

4 Ətrafımı ölüm ipləri bürümüşdü, Məni əcəl selləri ürkütmüşdü.

5 Ölülər diyarının ipləri mənə sarılmışdı, Ölüm kəməndləri məni qarşılamışdı.

6 Əzab içində Rəbbə yalvardım, Jehovahıma fəryad qopardım. O, məbədindən səsimi eşitdi, Fəryadımsa hüzuruna, Onun qulağına yetdi.

7 O zaman yer üzü sarsılıb titrədi, Dağların təməlləri lərzəyə gəldi, Onlar sarsıldı, Çünki O qəzəbləndi.

8 Burnundan tüstü çıxıb yüksəldi, Ağzından yandırıb-yaxan alov püskürdü, Bundan közlər tutuşdu.

9 O, göyləri yarıb yerədək endi, Qatı zülmət ayaqları altında idi.

10 Bir keruva minib uçdu, Yel qanadları üstə şığıdı.

11 Gizlənmək üçün ətrafını zülmətə bürüdü, Tufan qoparan qara buludlardan Özünə çardaq qurdu.

12 Hüzurundan şəfəq saçdı, Odlu közlər və dolu buludları yardı.

13 Rəbb göylərdə gurladı, Haqq-Taala səs saldı, Odlu közlər və dolu yağdı.

14 Oxlarını atıb düşmənləri darmadağın etdi, Şimşəyini çaxdırıb onları dağıtdı.

15 Ya Rəbb, Sənin məzəmmətindən, Burnundakı nəfəsinin şiddətindən Suların dərinlikləri göründü, Dünyanın bünövrələri açıq qaldı.

16 O, ucalardan əl uzadıb məni tutdu, Məni dərin suların içindən çıxartdı.

17 Məni qüvvətli düşmənimdən azad etdi, Çünki yağılarım məndən güclü idi.

18 Fəlakətli günümdə qarşıma çıxdılar, Lakin Rəbb mənə dayaq oldu.

19 O məni genişliyə çıxardı, Məndən razı qalıb məni qurtardı.

20 Rəbb mənə salehliyim naminə ənam verdi, Mənə əlitəmizliyimin əvəzini verdi.

21 Çünki Rəbbin yolunu tutmuşam, Pis olub Jehovahımın yolundan azmamışam.

22 Onun bütün hökmləri önümdədir, Qaydalarından imtina etməmişəm.

23 Onunla mən kamala çatmışam, Özümü günahdan qorumuşam.

24 Rəbb mənə salehliyimin əvəzini verdi, Gözünün önündə əlitəmiz olmağımın əvəzini verdi.

25 Sədaqətlilərlə sədaqətlisən, Kamillərlə kamilsən.

26 Təmizlərlə təmizsən, Əyrilərlə əyriliyinə görə davranırsan.

27 İtaətkar insanları qurtarırsan, Təkəbbürlü baxışları alçaldırsan.

28 Ya Rəbb, Sən çırağıma işıq verirsən! Jehovahım Rəbb zülmətimi nura çevirir.

29 Səninlə qoşun üstünə hücum çəkirəm, Jehovahımla sədlər keçirəm.

30 Jehovahın yolu kamildir, Rəbbin kəlamı safdır, Rəbb Ona sığınanların sipəridir.

31 Rəbdən başqa Jehovah kimdir ki? Jehovahımızdan başqa qaya kimdir ki?

32 Jehovah məni qüvvəsi ilə bürüyər, Yolumu kamil edər.

33 Ayaqlarımı maral ayaqları kimi çevik edər, Məni zirvələrimdə saxlar.

34 Əllərimə döyüş təlimi verər, Qollarım tunc kamanın yayını dartar.

35 Sən mənə qurtuluş qalxanını verdin, Mənə sağ əlinlə dayaq oldun, Köməyinlə məni yüksəltdin.

36 Geniş yer açdın ki, addımlayım, Ayaqlarım büdrəməsin.

37 Düşmənlərimi qovub onlara çatdım, Onlar məhv olanadək geriyə qayıtmadım.

38 Onları əzdim, qalxa bilmədilər, Ayaqlarımın altına sərildilər.

39 Döyüş üçün məni qüvvə ilə bürüdün, Əleyhdarlarımı ayağımın altına saldın.

40 Düşmənlərimin kürəyini mənə sarı çevirdin, Mənə nifrət edən yağıları məhv etdim.

41 Fəryad etsələr də, onları qurtaran olmadı, Rəbbi çağırsalar da, cavab almadılar.

42 Onları əzib külək sovuran toz etdim, Küçələrin palçığı kimi tapdaladım.

43 Sən məni xalqın çəkişmələrindən qurtardın, Məni millətlərə başçı qoydun, Tanımadığım xalqları mənə tabe etdirdin.

44 Yadellilər mənə boyun əydilər, Səsimi eşidəndə mənə itaət etdilər.

45 Yadellilərin cəsarəti qırıldı, Titrəyərək sığınacaqlarından çıxdılar.

46 Rəbb əbədi yaşayır! Qayama alqış olsun! Məni qurtaran Jehovahım ucalsın!

47 O, Jehovahdır, mənə görə qisas alır, Xalqları mənə tabe etdirir.

48 O məni düşmənlərimin arasından xilas edir, Bəli, məni yağılar üstündə ucaldır, Məni zalımların əlindən qurtarır.

49 Buna görə, ya Rəbb, Millətlər arasında Sənə şükür edəcəyəm, İsminə tərənnüm söyləyəcəyəm.

50 Rəbb padşahına böyük zəfərlər verər, Məsh etdiyi Davuda və nəslinə əbədi məhəbbət göstərər.

Pastor T. John Franklin
Church of Salvation, Healing, and Deliverance
COS-HAD.org